**Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin**

**Təsviri**

Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi (bundan sonra «şəxsiyyət vəsiqəsi» adlandırılacaq) 106 mm x 74 mm ölçülüdür. Beynəlxalq Mülki Aviasiya Təşkilatının 9303-cü sənədlərinə uyğundur.

Şəxsiyyət vəsiqəsinin üz tərəfinin yuxarı sol küncündə Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsviri verilmiş, onun yanında soldan sağa «Azərbaycan Respublikası», onun altında «Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi» sözləri yazılmışdır. Şəxsiyyət vəsiqəsində onun seriyası və nömrəsi yazılmışdır.

Şəxsiyyət vəsiqəsinin üz tərəfində «Soyadı», «Adı», «Atası: Soyadı, adı», «Anası: Soyadı, adı», «Doğulduğu yer», «Doğulduğu tarix», «Hansı ölkədən gəlib», «Cinsi» sözləri yazılmışdır;

arxa tərəfində, «Yaşayış yeri», «Vəsiqəni verən orqan», «Vəsiqənin verilmə tarixi», «Qan qrupu», «Etibarlıdır» sözləri yazılmış və möhür üçün yer qoyulmuşdur.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2912.**